TARİXİMİZİN UNUDULMAZ SƏHİFƏLƏRİ

# NƏRİMAN NƏRİMANOV

150

***(əvvəli 16, 18, 19, 20, 22, 23, 25, 28, 29 fevral, 1, 3, 5, 7, 8, 11, 12, 13, 14 və 15 mart tarixli saylarımızda)***

N.Nərimanov ağır şəraitdə iş aparırdı. O, Tiflisdə olarkən Şeytanbazar yaxınlığındakı Vorontsov küçəsində yerləşən "Azərbaycan" mehmanxanasının 26 nömrəli otağında yaşayır, xəstələri də elə orada qəbul edirdi. Çar polisinin xüsusi şöbəsi onu Tiflisə gəldiyi ilk gündən ciddi nəzarət altına almışdı.

1908-ci il dekabr ayının 18-də Qafqaz canişini Vorontsov-Daşkovun Tiflisdən P.A.Stolıpinə göndərdiyi məxfi məktubdan məlum olur ki, Tiflis quberniyasının jandarm idarəsi "inqilabi əhval-ruhiyyəli Qafqaz müsəlmanlarının İran inqilabçılarına pul və silahla köməyindən xəbər tutmuşdur. Bu hərəkat daha çox Bakı və Dağıstanda hiss edildiyindən Bakı qradonaçalnikinə və Dağıstan vilayətinin hərbi qubernatoruna tapşırılmışdı ki, İran inqilabçıları ilə əlaqə saxlayan adamları ciddi nəzarət altına alıb gizli təqib etsinlər.

Çar xəfiyyəsinin 1908-ci il fevral ayının 28-də Tehranda ələ keçirdiyi məxfi sənədlər ona mücahidlər partiyasının izinə düşməyə imkan vermişdi. Çünki bu sənədlərdə mücahidlər partiyası Mərkəzi Komitəsinin Qafqazda, xüsusən Tiflisdə yerləşməsini müəyyən etmək üçün kifayət qədər dəlil vardı. Çar xəfiyyəsi yazırdı: "...bu sənədlərin məhz bizim üçün o əhəmiyyəti var ki, mücahidlərin bütün şöbələrinə başçılıq edən Mərkəzi İdarənin Qafqazda və görünür, məhz Tiflisdə yerləşdiyi açıq təsdiq olunur. Hətta üzvlük haqqı və cərimələr də kranlarla *(Kran - keçmişdə İranda pul vahidi olmuşdu - T.Ə.)* və paralel olaraq rus sikkəsi ilə hesablanmışdır".

Ona görə də, çar polis idarəsi İran inqilabi hərəkatının görkəmli başçılarını Tehranda və Təbrizdə deyil, Tiflis və Bakıda axtarmağı üstün tuturdu.

Bu dövrdə İranın irtica qüvvələri hücuma keçmişdi. Əfsanəvi xalq qəhrəmanı Səttarxanın başçılıq etdiyi fədai dəstələri şah ordusuna qarşı ölüm-dirim mübarizəsinə başlamışdı. Belə bir vaxtda İran mücahidlər partiyasının Mərkəzi Komitəsi Zaqafqaziyanın ayrı-ayrı şəhərlərində mübariz şöbələr təşkil etmişdi. Həmin şöbələr Təbriz inqilabçılarına hər cür yardım göstərirdi.

Çar səfiri Təbrizdən öz hökumətinə göndərdiyi məlumatların birində şəhərin şah ordusu üçün basılmaz qalaya çevrilməsi barədə yazırdı: "Zaqafqaziyadan İrana odlu silah, mətbəə avadanlığı və hərbi sursat gətirən azərbaycanlı, gürcü və bəzən də rus dəstələrinin ardı-arası kəsilmir".

Şübhəsiz, çar Rusiyasının mürtəce dairələri bu həyəcanlı xəbərlərə etinasız qalmırdı (polis departamentinin məxfi sənədlərindən məlum olur ki, 1909-cu il yanvar ayının 17-də Türkiyəyə və İrana silah aparılmasının qarşısını almaq üçün ciddi tədbirlər hazırlanmışdı. Növbəti iclas haqqında deyilir: "Bizim tüfənglərin Türkiyəyə və İrana aparılmasına qarşı tədbirlər hazırlayan komissiyanın sədri general-leytenant Bestujev-Ryumin bu il yanvarın 24-də şənbə günü saat 1-də Baş Artilleriya İdarəsində, silah və patron zavodları müfəttişinin kabinetində komissiyanın iclasını təmin etmişdir". Gizli xəfiyyə idarələri canfəşanlıq edirdi. Hər yerdə təqiblər, kütləvi həbslər başlanmışdı. Tiflis şəhəri 4-cü polis sahəsi pristavının köməkçisi Maçavariani 1909-cu il yanvar ayının 24-də, gecəyarı saat 1-də Tiflis quberniyası jandarm idarəsinin rəisi Yeryominin qərarına əsasən Vorontsov küçəsində olan 26 nömrəli evin mənzillərində qəflətən axtarış aparmış (N.Nərimanov burada iki mənzil - 4 və 5 nömrəli mənzilləri kirayə etmişdi), silah və gizli ədəbiyyat tapa bilməmişdi.

Lakin buna baxmayaraq, N.Nərimanov 1909-cu il mart ayının 1-də həbsə alınıb Metex qalasına salınır (Rizvan Nərimanov Tiflis jandarm idarəsinə N.Nərimanovun həbsxanadan azad olunması haqqında xahişnaməsində yazır ki, polis 1909-cu il fevral ayının 28-də N.Nərimanovun mənzilində axtarış aparmış və onu həbs edib Metex qalasına salmışdır).

Martın 8-də onun şəkli çəkilir, iki gün sonra ilk sorğu-sual, istintaq başlanır. Tiflis quberniyasının jandarm idarəsi N.Nərimanovu "Səttarxan və Bağırxanın inqilabi ordusuna adam, silah və partlayıcı maddə göndərməkdə" ittiham edirdi.

Tiflis quberniyası jandarm idarəsinin rəisi polkovnik Yeryominin 1909-cu il mayın 31-də yazdığı 19 nömrəli istintaq qərarından məlum olur ki, N.Nərimanovun Tiflisə gəlişindən sonra inqilabi İran mücahidlər təşkilatının fəaliyyəti geniş vüsət almışdı. Əlbəttə, bu, təsadüfi deyildi.

Son axtarış vaxtı polisin əlinə keçmiş bir məktubdan görünür ki, hələ 1907-ci ildə mücahidlər partiyasının Mərkəzi Komitəsi N.Nərimanovun ictimai-siyasi və əməli fəaliyyətini yüksək qiymətləndirmiş, onu İran inqilabçılarının görkəmli rəhbəri hesab etmişdir.

Məktubda N.Nərimanova müraciətlə deyilir: "Əziz qardaşımız! Necə ki, Siz minlərlə rəzalət və təhqirlər zəncirində inləyən və Sizə son dərəcə minnətdar olan bizim iranlılara öz mütərəqqi əqidələrinizə sadiq qalaraq mümkün olan hər cür yardım edirsiniz, eləcə də İran xalqı, xüsusilə bizim mücahidlər firqəmiz Sizi əmin edir ki, İranda məşrutə təsisinin ilk səbəbkarı olmuş Sizin fədakar səylərinizi dünya durduqca heç bir zaman unutmayacağıq!".

N.Nərimanov məzlum Şərq xalqlarına kömək etməyi müqəddəs vətəndaşlıq borcu bilir, bu yolda var qüvvəsini əsirgəmirdi. O, İranı bürüyən kütləvi xalq hərəkatını milyonlarla yoxsul kütlənin ayılması, öz hüququnu dərk etməsi, milli istiqlal niyyəti uğrunda mübarizəsi kimi qiymətləndirirdi.

Məxfi arxiv sənədlərində N.Nərimanovun "Tiflis səfəri"nin gizli səbəbləri də öz əksini tapmışdır. Burada deyilir ki, N.Nərimanov "möhkəm partiya intizamı" olan şöbə təşkil etməli, onunla mərkəz arasında fəaliyyət birliyi yaratmalı, özünənəzarəti gücləndirməlidir. Çünki "...bu vaxta qədər yerli komitənin fəaliyyəti qeyri-müəyyən xarakter daşıyırdı, onun üzərində heç bir nəzarət yox idi. Bunun nəticəsində də İran inqilabının ehtiyacları üçün partiya tərəfindən toplanılan pul çox halda başqa məqsədlərə sərf olunurdu.

...Həkim Nərimanova mərkəz tərəfindən verilmiş təlimata müvafiq olaraq, yığılan pulların hesaba alınması və xərclənməsinə, ümumiyyətlə, şöbənin bütün fəaliyyətinə nəzarət etmək tapşırılmışdı. Bundan əlavə, komitənin möhüründən sui-istifadə edildiyinə görə, Nərimanova tapşırılmışdır ki, işi təşkil etmək üçün möhürü dəyişdirsin, əvvəlkini isə etibarsız elan etsin".

Akad. F.Köçərli sübut edir ki, N.Nərimanov 1906-cı ildə RSDFP-nin minimum məramnaməsini təbliğ etmək üçün yazdığı "Hürriyyətə dair bir neçə söz" adlı məqaləsinin bir hissəsini cüzi dəyişikliklə İran sosial-demokrat partiyasının məramnaməsinə daxil etmişdir".

N.Nərimanovun Mücahidlər partiyası ilə əlaqəsi onun inqilabi fəaliyyətinin ən parlaq səhifələrindən biridir. Polis axtarışı zamanı mətin inqilabçının mənzilində 1905-ci ildə Odessada oxuduğu referat konspektinin azərbaycanca əlyazması və rus dilində sosial-demokrat partiyasının məramnaməsinin tapılması bir daha sübut edir ki, Mücahidlər partiyasının bu görkəmli xadimi biliyini, təcrübəsini və əməli fəaliyyətini Səttarxan hərəkatının qələbəsi uğrunda mübarizəyə səfərbər etmişdir.

Məlum olduğu kimi, "Nərimanovdan savayı bir çox digər inqilabçılar da tutulmuş, onlarda da gizli sənədlər tapılmışdır".

Arxiv sənədlərini vərəqləyirik: İran təbəəsi, Mücahidlər partiyasının görkəmli xadimləri - Məhəmmədnağı Sadıxov, Yusif Hacırza oğlu, Mahmud Məhəmməd oğlu, Ələsgər Məhəmmədəliyev və başqaları... Onların N.Nərimanovla bir vaxtda həbsə alınması təsadüfi deyildir. Mücahidlər partiyasının bu fəal üzvləri N.Nərimanovun rəhbərliyi və göstərişi ilə İran inqilabi hərəkatına ciddi kömək edirdilər. Onlar Tiflisdə, Şimali Qafqazın və Dağıstanın şəhər və kəndlərində təbliğat-təşviqat yolu ilə İran inqilabına rəğbət bəsləyən adamlardan silahlı könüllülər dəstəsi düzəldir, onları Səttarxanın ordusuna göndərirdilər.

Məhəmmədnağı Sadıxov Tiflisdə "Azərbaycan" mehmanxanasında mənzil kirayə etmişdi. N.Nərimanovdan müntəzəm göstəriş almaq üçün bu, çox münasib idi. Mücahidlər partiyasının ən fəal üzvlərindən olan Məhəmmədnağı hər yerdə - istər Bakıda, istər Dağıstanda, istərsə də Şimali Qafqazda cəsur partiya əsgəri kimi yorulmadan çalışırdı. O, hətta Tiflisdəki hərbi düşərgələrdə də böyük inqilabi iş aparırdı. Onun gizli təbliğatı nəticəsində aşağı rütbəli hərbi xidmətçilər dəstə-dəstə qaçır, inqilabçı əsgərlərə qoşulurdular. Bu könüllü dəstələr Səttarxan ordusunda şah qoşunlarına qarşı böyük inqilabi coşqunluqla vuruşur, beynəlmiləl borclarını şərəflə yerinə yetirirdilər. Aleksey Boquslavski adlı birisi Moskvaya göndərdiyi məktubda, elə bil ki, rus könüllülərinin arzusunu ifadə edərək yazırdı: "Arzuma çatdım. Əlimdə silah azadlıq uğrunda mübarizə aparıram, doğrudur, bu mübarizə biz rusların azadlığı uğrunda mübarizə deyildir, lakin inanıram ki, tezliklə bizim Rusiyada da inqilab olacaqdır və bax onda mən xalqımızın yolunda canımdan keçəcəyəm, lakin döyüşdə keçəcəyəm".

1909-cu il mart ayının 12-də Karintoşviliyə göndərilən bir məktub İranda inqilabi hərəkatın geniş vüsət almasında könüllü dəstələrin rolunu təsəvvür etməyə imkan verir. Məktubda deyilir: "Mixo İrandan qayıtmışdır, bizim cəsur oğullarımız haqqında möcüzələr danışır, onlar hökumət qoşununu dəhşətə gətirmişlər, bir çox halda işə rəhbərlik bizim igidlərə tapşırılır. Ümid var ki, hər yerdə inqilabçılar üstün gələcəklər və yeni hökumət iş başına keçəcəkdir. İranlılar indi bizə dərin rəğbət bəsləməyə və daha böyük etimadla yanaşmağa başlamışlar; şadam ki, gürcülərə öz tarixi qonşusuna kömək əli uzatmaq nəsib olmuşdur. Hər yerdə gediş-gəliş çətinləşmişdir, buna baxmayaraq, yerli tatarlar *(azərbaycanlılar - T.Ə.)* içərisindən seçmə gənclər dəstə-dəstə yola düşürlər. Bir çox hallarda qızıl pul cingiltisi keçidləri onlar üçün geniş açır".

Polis idarəsinin ittihamnaməsində deyilir ki, 1909-cu ilin yanvar ayının ortalarında Məhəmmədnağı Sadıxov Tiflisdə birinci və ikinci Qafqaz istehkamçı batalyonlarında bir dəstə aşağı rütbəli hərbi xidmətçinin qaçmasını təşkil etmişdi. Lakin əməliyyat planının üstünün açılması və dəstə başçıları - Sıçyev və Kovalenkonun həbsə alınması nəticəsində İrana qaçış baş tutmamışdı. Həmin il yanvarın 14-də Tiflis stansiyasında vaqonda həbs edilən D.P.Kalandaraşvilini də İrana Məhəmmədnağı Sadıxov göndərirdi. Axtarış vaxtı D.P.Kalandaraşvilinin çamadanından "Mauzer" tipli tapança üçün 859 ədəd güllə, əl səbətində isə bomba hazırlamaqdan ötəri materiallar: sulfat turşusu, bertole duzu, şüşədən düzəldilmiş truba və s. tapılmışdır.

Təbrizdə qızğın döyüş günləri Səttarxan ordusunun topçularına komandanlıq edən rus topçusu, ehtiyat xidmətləri praporşiki Sergey Qoqoşidze də Məhəmmədnağı Sadıxovun Təbrizə göndərdiyi könüllülərdən idi. Mübariz inqilab fədaisi Məhəmmədnağı Sadıxovun çoxcəhətli fəaliyyətini aydın təsəvvür etmək üçün İbrahim bəy Cahangirovun Culfadan ona göndərdiyi məktubu nəzərdən keçirmək maraqlıdır. Bu məktubdan məlum olur ki, Culfada İran şahının güclü mühafizə dəstəsinin olmasına baxmayaraq, Qafqaz inqilabçıları Təbrizə buradan müntəzəm silah, hərbi sursat və könüllülər göndərmişlər. İ.Cahangirov Tiflisə Məhəmmədnağı Sadıxova göndərdiyi məktubda yazırdı: "Nə qədər bacarırsınız çoxlu adam və silah göndərin. Xatircəm olun: Sizə söz verirəm ki, o tayda bir iş görə biləcəyik. ...Göndərilən adamlar gözəl silahlanmışdı: Əgər mənim belə düzəldilmiş və silahla təchiz edilmiş dəstəm olsaydı, əmr etsəydiniz hara getməzdim?".

İbrahim bəy Cavanşir Culfada mürəkkəb siyasi hərbi şəraitdə məsul, ciddi partiya tapşırığını yerinə yetirsə də, onu xalqın, vətənin taleyi həll olunan döyüş meydanı daha çox cəlb edirdi. O yazırdı: "Yoldaşlar toplaşan kimi haradan olursa-olsun hücum etməyi qərara almışam. Bizə silah, partlayıcı maddə və yaxşı yoldaşlar göndərin". Onun məktubu "Yaşasın konstitusiya, yaşasın millətpərvərlik" çağırışı ilə sona çatır.

Yusif Hacı Rza oğlunun mənzilində polisin ələ keçirdiyi məxfi məktub isə "müqəddəs mərkəz üzvünə" müraciətlə yazılmışdır. Burada rus kazak dəstələrinin çəkdiyi Culfa-Təbriz şose yolunun və rus dövlətinin Təbrizdəki səfirliyinin mühafizəsini gücləndirmək bəhanəsi altında Rusiyanın İran şahına iki nəqliyyatda göndərdiyi silahın və digər hərbi sursatın inqilabçılar tərəfindən zəbt edilməsi və Rusiyanın niyyətinə qarşı təcili etiraz teleqramı göndərilməsi haqqında sərəncam vardır.

***(davamı növbəti saylarımızda)***